IrsN6_2007-last:IrsN3_2007.qxd 30.11.2007 19:45 56

A-PDF Split DEMO : Purchase from www.A-PDF.com to remove the watermark



## BAŞA DÜŞMƏZ, BİZİM KƏNDDƏNDİR

Kəndlinin evinə oğru gəlir. Ev yiyəsi duyuq düşüb oğrunu tutur, onun ayaqlarını zirzəmiyə salır və polis idarəsinə xəbər verməyə gedir. Orada əhvalatı olduğu kimi danışır. Polis məmuru soruşur:

- Oğru haradadır?

Kəndli oğrunun zirzəmidə olduğunu söyləyir.

- Zirzəminin qapısını bağlamısanmı? - sualına kəndli başını bulayaraq "xeyr!" cavabını verir.

Polis məmuru təəccüblə soruşur:

- Oğrunun əl-qolunu və ayaqlarını bağlamısanmı?

Kəndli deyir:

- Ayaqlarını bağlamışam, amma əllərini yox.
- Bəs əlləri ilə ayaqlarının ipini açıb qaçar ki!

Kişi bir qədər fikirə gedib deyir:

- Tutduğum oğru da elə bizim kənddəndir, bizim hamımızın başı bir təhər işləyir, əgər bu fikir mənim ağlıma gəlməyibsə, onun da ağlına gəlməz.

Doğrudan da kişinin evinə gəlib oğrunun zirzəmiyə salındığı vəziyyətdə də oturub qaldığını, imkan olduğu halda qaçmadığını görürlər.

*Məsəldən ən aydın və asan başa düşülən işi belə dərk etməkdə çətinlik çəkən, kütbeyin, dilbilməz adamların iş və hərəkətlərini qiymətləndirmək məqsədilə istifadə olunur.*

## BİR SAATLIQ (GÜNLÜK) XƏLİFƏLİK

"Min bir gecə" hekayələrinin birində deyilir ki, Bağdadda Əbuhəsən adlı yoxsul bir gənc yaşayırmış. Ağır ömür sürən bu oğlan daim dövlətlənib varlanmaq, hətta xəlifə belə olmaq ümidi ilə yaşayırmış.

Bir gün tacir paltarı geyib şəhəri gəzən xəlifə Harun-ər-Rəşid təsadüfən onun evinə qonaq gəlir. Ev yiyəsi söhbət əsnasında heç olmasa bir saat, bir gün xəlifəlik etmək arzusunda olduğunu söyləyir. Bu söz Harun-ər-Rəşidi çox maraqlandırır. Xörək yeyərkən o, şərabın içərisinə bihuşdarı töküb oğlanı yatırdır, sonra öz adamlarını çağırıb onu saraya göndərir.

Ertəsi gün oğlan gözünü açıb özünü xəlifənin taxtında görür. Həqiqətən xəlifə olduğuna inanır, bir sıra əmrlər verir, məhkəmələr aparır, şikayətlərə baxır, bir sözlə həmin gün axşama qədər xəlifənin vəzifələrini icra edir. Axşam Harun-ər-Rəşid oğlanın yeməyinə yenə bihuşdarı qatdıraraq huşsuz vəziyyətdə onu öz evinə göndərir. Ertəsi gün oğlan yuxudan oyanıb röyada öz arzusuna çatdığını zənn edir.

*Xəyalpərvər adamlar haqqında bu məsəli çəkirlər.* ✸

***"Rəvayətli ifadələr", Bakı-1961***